**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

28.12.2022-ci il

# Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2023-cü il üçün Yol Xəritəsi

| Sıra №-si | Görüləcək tədbirlər | Son icra müddəti | İcraçı qurumlar | Müvafiq altqrupda təmsil olunan məsul şəxslər (əlaqələndiricilər) |
|---|---|---|---|---|
| **1. ESG üzrə resurs potensialının inkişafı** | | | | |
| 1.1. | ESG elementləri ilə bağlı ölkəmizin beynəlxalq öhdəlik və vəzifələrinin araşdırılması və müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.03.2023 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)) (“PwC Azerbaijan” şirkəti cəlb edilməklə) | Mətanət Musayeva, Asəf Rzayev, Elmar İsayev, İlahə Əmirbəyova |
| 1.2. | Biznes subyektləri arasında qarşılıqlı məlumat mübadiləsinin aparılması və fəaliyyətlərinin əlaqələndirilməsi məqsədilə ESG sahəsində ölkədə mövcud təşəbbüslərin müəyyən edilməsi | 01.03.2023 | İqtisadiyyat Nazirliyi (KOBİA), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (“Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan) və “Azərbaycan Beynəlxalq Bankı” ASC cəlb edilməklə) | Elmar İsayev, Mətanət Musayeva, Fidan Tofidi, Arzu Bayramov |
| 1.3. | ESG elementləri ilə bağlı ölkədə qanunvericilik bazasının və mövcud tələblərin araşdırılması, nəticələri üzrə arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.04.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ətraf mühit məsələlərinə münasibətdə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (sosial məsələlərə münasibətdə), İqtisadiyyat Nazirliyi (idarəetmə məsələlərinə münasibətdə) | Leyla Əliyeva, Nazim Şahbazov, Nicat Eyvazzadə |

| | | | | |
|---|---|---|---|---|
| 1.4. | ESG üzrə hüquqi və normativ baza sahəsində qabaqcıl ölkələrin təcrübələrinin araşdırılması və nəticələri üzrə arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.05.2023 | Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Sənaye Korporasiyası | Vahid Məmmədzadə, Azad Aslanov |
| 1.5. | ESG sahəsində müəssisələr daxilində prosedurların və siyasətlərin hazırlanması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və nəticələri barədə arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.09.2023 | Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Sənaye Korporasiyası, İqtisadiyyat Nazirliyi (Sahibkarlığın İnkişafı Fondu) | Vahid Məmmədzadə, Azad Aslanov, Cavid Hüseynli |
| 1.6. | Ölkədə ESG ilə bağlı qanunvericilik və tənzimləmə bazasının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2023 | İqtisadiyyat Nazirliyi (idarəetmə məsələlərinə münasibətdə) (müvafiq altqrupla birlikdə və “McKinsey & Company” şirkəti cəlb edilməklə), Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ətraf mühit məsələlərinə münasibətdə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (sosial məsələlərə münasibətdə) | Nicat Eyvazzadə, Natəvan Məmmədova, Leyla Əliyeva, Nazim Şahbazov |
| **2. ESG sahəsində məlumatlılığın artırılması** | | | | |
| 2.1. | Biznes subyektlərində ESG üzrə məlumatlılıq səviyyəsinin və onların bu istiqamətdə müvafiq ehtiyaclarının öyrənilməsi məqsədilə sorğu keçirilməsi və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.05.2023 | İqtisadiyyat Nazirliyi (KOBİA), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Elmar İsayev, Leyla Əliyeva, Nazim Şahbazov |
| 2.2. | Biznes subyektlərinin ESG sahəsində mövcud təcrübələr (beynəlxalq tələblər) barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə maarifləndirici tədbirlərin həyata keçirilməsi | Hər rüb | İqtisadiyyat Nazirliyi (KOBİA), Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Energetika Nazirliyi (“Azərbaycan Beynəlxalq Bankı” ASC cəlb edilməklə) | Elmar İsayev, Leyla Əliyeva, Nazim Şahbazov, Asəf Rzayev, Arzu Bayramov |
| 2.3. | Müəssisələrin fəaliyyətində ESG meyarları üzrə məlumatların və ictimaiyyət üzrə açıq statistik bazanın mövcudluğunun araşdırılması və nəticələri üzrə arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.06.2023 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ətraf mühit məsələlərinə münasibətdə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (sosial məsələlərə münasibətdə), İqtisadiyyat Nazirliyi (idarəetmə məsələlərinə münasibətdə) (“Smart Solutions Group” şirkəti cəlb edilməklə) | Leyla Əliyeva, Nazim Şahbazov, Nicat Eyvazzadə, Kənan Tabasaranskiy |

| | | | | |
|---|---|---|---|---|
| 2.4. | ESG sahəsində statistik bazanın inkişaf etdirilməsi (təkmilləşdirilməsi) məqsədilə müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (idarəetmə məsələlərinə münasibətdə) (müvafiq altqrupla birlikdə və “Smart Solutions Group” şirkəti cəlb edilməklə), Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ətraf mühit məsələlərinə münasibətdə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (sosial məsələlərə münasibətdə), Dövlət Statistika Komitəsi | Nicat Eyvazzadə, Kənan Tabasaranskiy, Leyla Əliyeva, Nazim Şahbazov |
| **3. ESG prinsiplərinin tətbiqinə hazırlıq** | | | | |
| 3.1. | Müəssisələrdə ESG tələblərinin (prinsiplərinin) tətbiqinə hazırlıq səviyyəsinin qiymətləndirilməsi ilə bağlı sorğunun aparılması və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.05.2023 | İqtisadiyyat Nazirliyi (KOBİA), Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Sənaye Korporasiyası | Elmar İsayev, Vahid Məmmədzadə, Azad Aslanov |
| 3.2. | ESG tələblərinin könüllü tətbiqinin təşviqi ilə bağlı prioritet sektorların müəyyən edilməsi və bu barədə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2023 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İqtisadiyyat Nazirliyi (Azərbaycan İnvestisiya Şirkəti), Energetika Nazirliyi | Mətanət Musayeva, Fərid Quliyev, Asəf Rzayev |
| 3.3. | ESG tətbiqi ilə bağlı risk qiymətləndirilməsinin aparılması və nəticələri üzrə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2023 | İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (“Smart Solutions Group” və “Deloitte & Touche” şirkətləri cəlb edilməklə) | Mətanət Musayeva, Kənan Tabasaranskiy, Aslan İbrahimov |
| 3.4. | Müəssisələrin ESG yanaşmasının tətbiqi üzrə hazırlıq səviyyəsinin artırılması məqsədilə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2023 | Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Dövlət Neft Şirkəti (“PwC Azerbaijan” və “Deloitte & Touche” şirkətləri cəlb edilməklə) | Vahid Məmmədzadə, İsmayıl Süleymanov, İlahə Əmirbəyova, Aslan İbrahimov |
| **4. ESG prinsiplərinin tətbiqinin təşviqi** | | | | |
| 4.1. | ESG prinsiplərinin tətbiqinin vergi və bank sektoru tərəfindən stimullaşdırılması məqsədilə beynəlxalq təcrübənin araşdırılması və nəticələri üzrə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.05.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Mərkəzi Bank (“Kapital Bank” ASC cəlb edilməklə) | Maya Əliyarzadə, Ataxan Həsənov, Elçin Mustafayev |
| 4.2. | ESG prinsiplərinin tətbiqinin vergi və bank sektoru tərəfindən stimullaşdırılması məqsədilə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti və Sahibkarlığın İnkişafı Fondu), Mərkəzi Bank (“Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan) cəlb edilməklə) | Maya Əliyarzadə, Ataxan Həsənov, Cavid Hüseynli, Ceyhun Atayev |

| | | | | |
|---|---|---|---|---|
| 4.3. | Şirkətlərin dövlət satınalmaları üzrə tenderlərdə iştirakı zamanı ESG prinsiplərinin nəzərə alınması imkanının öyrənilməsi və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti) (müvafiq altqrupla birlikdə və “Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan) cəlb edilməklə) | Ceyhun Atayev, Nicat Eyvazzadə |
| 4.4. | ESG prinsiplərinin tətbiqinin genişləndirilməsi məqsədilə maliyyə resurslarına çıxışın əlçatanlığının təmin olunması ilə bağlı mövcud imkanların araşdırılması və müvafiq tövsiyələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.12.2023 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (Sahibkarlığın İnkişafı Fondu) (“Azərbaycan Beynəlxalq Bankı” ASC, “Kapital Bank” ASC və “Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan) cəlb edilməklə) | Ataxan Həsənov, Cavid Hüseynli, Arzu Bayramov, Elçin Mustafayev, Fidan Tofidi |
| 4.5. | “Yaşıl məhsullar”ın (Green Products) yaradılması istiqamətində maliyyə qurumlarına texniki dəstəyin göstərilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | İqtisadiyyat Nazirliyi (Sahibkarlığın İnkişafı Fondu), Mərkəzi Bank (“Azərbaycan Beynəlxalq Bankı” ASC və “Kapital Bank” ASC cəlb edilməklə) | Cavid Hüseynli, Ataxan Həsənov, Arzu Bayramov, Elçin Mustafayev |
| **5. ESG ilə bağlı hesabatlılıq** | | | | |
| 5.1. | ESG sahəsində hesabatlılıq standartları ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və nəticələri üzrə müvafiq arayışın hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (Azərbaycan Standartlaşdırma İnstitutu), (“Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan), “PwC Azerbaijan” və “Ernst & Young Holdings (CIS) B.V.” şirkətləri cəlb edilməklə) | Gülbacı Əliyeva, Ceyhun Atayev |
| 5.2. | ESG ilə bağlı biznes sahələri üzrə müvafiq tələblərin və ehtiyacların müəyyən edilməsi | 01.07.2023 | Azərbaycan Sənaye Korporasiyası, Azərbaycan Dövlət Neft Şirkəti (“Smart Solutions Group” şirkəti cəlb edilməklə) | Azad Aslanov, İsmayıl Süleymanov, Kənan Tabasaranskiy |
| 5.3. | ESG sahəsində hesabatlılıq standartlarının yaradılması ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (Azərbaycan Standartlaşdırma İnstitutu) (“Azərbaycanda Amerika Ticarət Palatası” İctimai Birliyi (AMCHAM Azərbaycan), “PwC Azerbaijan” və “Ernst & Young Holdings (CIS) B.V.” şirkətləri cəlb edilməklə) | Gülbacı Əliyeva, Ceyhun Atayev, İlahə Əmirbəyova, Fidan Sadıxlı |

| | | | | |
|---|---|---|---|---|
| 5.4. | Biznes subyektlərinin ESG üzrə qiymətləndirilməsinə dair müvafiq metodologiyanın tətbiqi imkanları ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.11.2023 | İqtisadiyyat Nazirliyi (müvafiq altqrupla birlikdə, “Smart Solutions Group” və “Ernst & Young Holdings (CIS) B.V.” şirkətləri cəlb olunmaqla),<br>Dövlət Neft Şirkəti,<br>Azərbaycan İnvestisiya Holdinqi,<br>Azərbaycan Sənaye Korporasiyası | Nicat Eyvazzadə,<br>Kənan Tabasaranskiy,<br>İsmayıl Süleymanov,<br>Vahid Məmmədzadə,<br>Azad Aslanov,<br>Fidan Sadıxlı |
| **6. ESG təşəbbüsü üzrə strateji baxış** | | | | |
| 6.1. | Bu Yol Xəritəsinə əlavə olunmuş “ESG təşəbbüsü üzrə strateji baxış” sənədində müəyyən edilmiş istiqamətlər üzrə növbəti dövrlərə dair müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (müvafiq altqrupla birlikdə) | Müvafiq altqrupun bütün üzvləri |

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov tərəfindən 28.12.2022-ci il tarixində təsdiq edilmiş Yol Xəritəsinə əlavə

# ESG (ekoloji, sosial və korporativ idarəetmə) təşəbbüsü üzrə

# STRATEJİ BAXIŞ

# Strateji məqsədlər:

ESG ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması, gələcək fəaliyyətlərin planlaşdırılması və dəstəklənməsi üçün aşağıdakılar əsas götürülməklə ölkə səviyyəsində ESG təşəbbüslərinin ilkin layihəsinin həyata keçirilməsi:

- biznesin yerli, regional və qlobal bazarda rəqabətə davamlı olması;
- investisiya cəlbediciliyinin və xarici birbaşa investisiyaların dəstəklənməsi;
- ekoloji və sosial amillərə töhfə vermək üçün biznes mühitinin dəstəklənməsi.

# ESG təşəbbüsü üzrə yüksək səviyyəli plan

## *Vaxt cədvəli

| | | | | |
|---|---|---|---|---|
| ***6-12 ay* | | *12 ay* | *12-18 ay* | *Müntəzəm, dövri* |
| Başlanğıc mərhələsi → | Qiymətləndirmə mərhələsi → | Strategiya və siyasətin hazırlanması → | ESG meyarlarının inteqrasiyası → | Monitorinq, ölçmə və hesabat |
| • Dövlət səviyyəsində ESG səylərinin səfərbər edilməsi<br>• Yanaşma və metodologiyanın işlənib hazırlanması<br>• Yüksək səviyyəli təşəbbüs planı və müfəssəl iş planının hazırlanması | • Hökumətin ESG üzrə yetkinlik səviyyəsinin müvafiq meyarlara (*məlumatlılıq, hazırlıq və qarşılıqlı fəaliyyət*) əsasən qiymətləndirilməsi<br>• Təkmilləşdirmə sahələrinin və istiqamətlərinin müəyyənləşdirilməsi | • ESG-nin strategiyalara və sektor planlarına daxil edilməsi<br>• ESG üzrə siyasət və qaydaların hazırlanması | • ESG meyarlarının qaydalara, qanunlara, siyasətlərə və əməliyyatlara inteqrasiyası<br>• Milli, sektoral, sənaye sahələrində ESG layihələrinin həyata keçirilməsi | • ESG üzrə əldə edilən tərəqqinin monitorinqi<br>• ESG üzrə tərəqqi, təsir və nailiyyətlərin ölçülməsi və hesabat verilməsi |

*ESG təşəbbüsü üzrə vaxt cədvəli indikativ (təqribi) xarakter daşıyır və xüsusi müzakirələrdən, resursların müəyyənləşdirilməsindən və digər müvafiq addımlardan sonra nəzərdən keçirilməlidir.

**Başlanğıc və qiymətləndirmə mərhələləri üçün hesablanmış vaxt qrafiki təqribidir. Bu mərhələlərin müddəti ölkənin ESG üzrə yetkinlik səviyyəsinin müəyyənləşdirilməsi üçün mövzu üzrə ekspertlərin cəlb edilməsi nəzərə alınmaqla qiymətləndirilir.

# Başlanğıc mərhələsi – təşəbbüsə başlamaq üçün düzgün planlaşdırma vacibdir

## Başlanğıc mərhələsi

- Dövlət səviyyəsində ESG səylərinin səfərbər edilməsi
- Yanaşma və metodologiyanın işlənib hazırlanması
- Yüksək səviyyəli təşəbbüs planı və müfəssəl iş planının hazırlanması

## Qiymətləndirmə mərhələsi

- Hökumətin ESG üzrə yetkinlik səviyyəsinin müvafiq meyarlara (*məlumatlılıq, hazırlıq və qarşılıqlı fəaliyyət*) əsasən qiymətləndirilməsi
- Təkmilləşdirmə sahələrinin və istiqamətlərinin müəyyənləşdirilməsi

## Strategiya və siyasətin hazırlanması

- ESG-nin strategiyalara və sektor planlarına daxil edilməsi
- ESG üzrə siyasət və qaydaların hazırlanması

## ESG meyarlarının inteqrasiyası

- ESG meyarlarının qaydalara, qanunlara, siyasətlərə və əməliyyatlara inteqrasiyası
- Milli, sektoral, sənaye sahələrində ESG layihələrinin həyata keçirilməsi

## Monitorinq, ölçmə və hesabat

- ESG üzrə əldə edilən tərəqqinin monitorinqi
- ESG üzrə tərəqqi, təsir və nailiyyətlərin ölçülməsi və hesabat verilməsi

Aşağıdakılar əhatə olunmaqla (siyahı bununla məhdudlaşmaya bilər) ESG təşəbbüsü ilə bağlı çərçivənin hazırlanması:

- Əsas işçi qrupun səfərbərliyi / Dövlət ESG işçi komitəsinin yaradılması;
- Mövzu üzrə ekspertlərin, səlahiyyətli müvafiq sənaye resurslarının cəlb edilməsi;
- Yüksək Səviyyəli Təşəbbüs Planının hazırlanması və təsdiqi;
- Müfəssəl iş planının / fəaliyyət planının hazırlanması;
- Layihənin məqsədlərinin və mərhələlərinin müəyyənləşdirilməsi;
- Mümkün risklərin və təsirlərin azaldılması üsullarının müəyyənləşdirilməsi.

# Qiymətləndirmə mərhələsi ölkənin ESG üzrə yetkinlik səviyyəsinin diaqnostikasını nəzərdə tutur

**Başlanğıc mərhələsi**

- Dövlət səviyyəsində ESG səylərinin səfərbər edilməsi
- Yanaşma və metodologiyanın işlənib hazırlanması
- Yüksək səviyyəli təşəbbüs planı və müfəssəl iş planının hazırlanması

**Qiymətləndirmə mərhələsi**

- Hökumətin ESG üzrə yetkinlik səviyyəsinin müvafiq meyarlara (*məlumatlılıq, hazırlıq və qarşılıqlı fəaliyyət)* əsasən qiymətləndirilməsi
- Təkmilləşdirmə sahələrinin və istiqamətlərinin müəyyənləşdirilməsi

**Strategiya və siyasətin hazırlanması**

- ESG-nin strategiyalara və sektor planlarına daxil edilməsi
- ESG üzrə siyasət və qaydaların hazırlanması

**ESG meyarlarının inteqrasiyası**

- ESG meyarlarının qaydalara, qanunlara, siyasətlərə və əməliyyatlara inteqrasiyası
- Milli, sektoral, sənaye sahələrində ESG layihələrinin həyata keçirilməsi

**Monitorinq, ölçmə və hesabat**

- ESG üzrə əldə edilən tərəqqinin monitorinqi
- ESG üzrə tərəqqi, təsir və nailiyyətlərin ölçülməsi və hesabat verilməsi

---

- Ölkə səviyyəsində ESG üzrə yetkinlik səviyyəsinin qiymətləndirilməsi
- 3 əsas meyardan (məlumatlılıq, hazırlıq və qarşılıqlı fəaliyyət (qanunvericilik, maneələr, öhdəliklər və s.) irəli gələrək güclü tərəflərin və təkmilləşdirməyə ehtiyac duyulan sahələrin müəyyən edilməsi
- Oxşar təcrübəyə malik ölkələrin seçilməsi üçün identifikasiya meyarlarının işlənib hazırlanması (bençmarkinq üçün)
- Bençmarkinq təhlili
- Qlobal və regional standartların və / və ya tələblərin təhlili
- ESG baxımından hökumətin milli, sektoral və sənaye prioritetlərinin müəyyən edilməsi
- Müvafiq ESG amilləri üzrə məsul qurumların və tənzimləyici orqanların, eləcə də onların mandat və fəaliyyət istiqamətlərinin müəyyən edilməsi
- Boşluqların təhlili hesabatı
- Tövsiyələrin hazırlanması

# ESG təşəbbüsü üzrə yol xəritəsi

| № | Müəyyən edilmiş istiqamətlər | *3-4 il* | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ***1-ci il*** | | | | ***2-ci il*** | | | | ***3-cü il*** | | | | ***4-cü il*** | | | |
| | | *1-ci rüb* | *2-ci rüb* | *3-cü rüb* | *4-cü rüb* | *1-ci rüb* | *2-ci rüb* | *3-cü rüb* | *4-cü rüb* | *1-ci rüb* | *2-ci rüb* | *3-cü rüb* | *4-cü rüb* | *1-ci rüb* | *2-ci rüb* | *3-cü rüb* | *4-cü rüb* |
| 1. | Başlanğıc mərhələsi | | | | ◆ | — | ◆ | | | | | | | | | | |
| 2. | Qiymətləndirmə mərhələsi | | | | ◆ | — | ◆ | | | | | | | | | | |
| 3. | Strategiya və siyasətin hazırlanması | | | | | | | ◆ | — | — | ◆ | | | | | | |
| 4. | ESG meyarlarının inteqrasiyası | | | | | | | | | | | ◆ | — | — | — | — | ◆ |
| 5. | Monitorinq, ölçmə və hesabat | | | | | | | | | | | ◆ | — | — | — | — | ◆ |